

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 166 (23.808)

10 sentyabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Naxçıvanda yüksək bal toplamış məzunlarla görüş olub





Sentyabrın 9-da Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərənləri, eləcə də onların timsalında tələbə adı qazanmış bütün məzunları, onların valideynlərini və təhsil ictimaiyyətini təbrik edərək demişdir: Hər bir ölkənin gələcəyi təhsilin səviyyəsindən və gənclərin necə yetişməsindən asılıdır. Ümummilli liderimiz Heydər Əliyev gənc nəslin ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirakını daim ön planda saxlamış, buna nail olmağın yolunu isə elmin və təhsilin inkişafında görmüşdür. Azərbaycanda mütərəqqi təhsil strategiyasının əsasını qoyan dahi şəxsiyyət deyirdi ki, ***“Müstəqil Azərbaycanın dövlətçiliyini, iqtisadiyyatını, elm və mədəniyyətini yalnız həqiqi təhsil, bilik almış adamlar inkişaf etdirib irəlilədə bilər”.*** Həqiqətən də, təhsilin dövlət və cəmiyyət quruculuğu prosesində rolu əvəzsizdir. ***“Hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyev də təhsili ümumi inkişafın əsas istiqaməti kimi müəyyənləşdirmişdir.

Ali Məclisin Sədri demişdir: Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu tədbirləri etibarlı gələcəyimizə hesablanıb. Müstəqillik illərində muxtar respublikada bütün təhsil pillələri üzrə yeni texnologiyalara əsaslanan tədris infrastrukturu yaradılmış, 200-dən çox məktəb binası tikilmiş və ya yenidən qurulmuşdur. Həmçinin ali, orta ixtisas və peşə məktəbləri üçün də yeni binalar istifadəyə verilmiş, universitet şəhərcikləri salınmışdır. Təhsil müəssisələrində internetə çıxışı olan 900-ə yaxın elektron lövhə, 7 mindən çox kompüter quraşdırılmış, zəngin fonda malik kitabxanalar, kabinə və laboratoriyalar istifadəyə verilmişdir.

Qeyd olunmuşdur ki, innovativ təlim metodlarının, xüsusilə də STEAM təhsilin tətbiqi və tədrisin təcrübə sahələrinə yaxınlaşdırılması insan kapitalının formalaşdırılması istiqamətində ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Təbii ki, bütün bunlar tədrisin səviyyəsinə də öz təsirini göstərmişdir. Hər il ali məktəblərə qəbul imtahanlarında qazanılan uğurlu nəticələr bunu bir daha təsdiq edir. 2020-2021-ci tədris ilində də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunların 261-i imtahanlarda yüksək nəticə göstərərək 500-700 arası bal toplamışdır.

Ali Məclisin Sədri görkəmli pedaqoq Makarenkonun *“biz insan deyil, ölkəsini, xalqını sevən əsl vətəndaş tərbiyə etməliyik”* fikirlərini diqqətə çatdıraraq demişdir: Bu gün sizə baxarkən məsuliyyətini dərk edən, xalqının milli dəyərlərinə və ənənələrinə, Azərbaycançılıq ideyalarına sadiq olan vətənpərvər gəncləri görür və bununla qürur duyuruq. Vətənpərvərlik geniş məfhumdur. Hər kəs çalışdığı sahədə üzərinə düşən vəzifələri yaxşı icra edirsə, deməli, o, vətənpərvərdir. Tələbə-gənclər isə buna hərtərəfli təhsil almaqla, biliklərə dərindən yiyələnməklə, xarici dil öyrənməklə, yeni texnologiyaları mənimsəməklə və düzgün həyat yolu seçməklə nail olmalıdırlar.

“Təhsildə əsas hədəf qazanılan bilik və bacarıqları iqtisadi amilə çevirməkdir. Bu isə yaxşı mütəxəssis hazırlığından başlayır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, çalışın qazandığınız bilikləri praktikada tətbiq edərək ölkəmizə fayda verəsiniz. Bir sözlə, seçdiyiniz peşəni dərindən öyrənməklə yanaşı, həm də geniş dünyagörüşünə malik olmalı, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacarmalı, dəyərlərinə və tarixinə sahib çıxan, müasir təfəkkürlü kadrlar kimi yetişməlisiniz.

Ali Məclisin Sədri tələbə adını qazanmış hər bir gəncə bu yolda uğurlar arzulamış, çıxışını ümummilli liderimiz Heydər Əliyevin gənclərə tövsiyəsi ilə tamamlamışdır: ***“Zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz – yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız”.***

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələr kimi, təhsil də diqqət və qayğı ilə əhatə olunmuşdur. 2020-2021-ci tədris ili ərzində də təhsil müəssisələrinin tikintisi və ya yenidən qurulması davam etdirilmiş, Culfa Rayon Təhsil Şöbəsi və 6 məktəb üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, Ordubad və Culfa rayon məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklərin fəaliyyəti üçün zəruri şərait yaradılmışdır. 2020-2021-ci tədris ili təhsildə innovasiyaların tətbiqi ilə yadda qalmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” 7 iyun 2021-ci il tarixli Sərəncamı ilə Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılır. Eyni zamanda Sərəncama əsasən ümumtəhsil məktəblərində STEAM kabinələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Bu günə qədər 52 təhsil müəssisəsində STEAM kabinələri yaradılmış, dərsliklər və tədris proqramları nəşr edilmiş, 200-dən çox müəllim STEAM təlimlərinə cəlb olunmuşdur. Hazırda isə əlavə olaraq



50 təhsil müəssisəsində STEAM kabinələrinin qurulması istiqamətində iş aparılır. 2020-2021-ci tədris ilində də ümumtəhsil məktəblərində işə qəbulla bağlı keçirilən müsabiqələrdə uğurlu nəticələr qazanan gənc kadrlardan 306-sı müəllim, 55-i isə məktəblərdə müxtəlif vəzifələrə təyin olunmuş, 1200-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına, təlimlərə cəlb olunmuş, Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması aparılmışdır. Yaradılan şərait və müəllim hazırlığı istiqamətində görülən tədbirlər onların fəallığını artırmış, cari tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsində muxtar respublika müəllimlərindən 4-ü qalib olmuşdur.

Rəhman Məmmədov demişdir ki, Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı mövzuların tədrisi prosesində muzeylərlə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslər, həmçinin elm, ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli müəllimləri tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslərin keçilməsi 2020-2021-ci tədris ilində də davam etdirilmişdir. Bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təhsil və şahmat sahəsində fərqlənən 2 şagirdin adı Gənc İstedadların “Qızıl kitabı”na yazılmış, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Bildirilmişdir ki, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasının nəticəsidir ki, hərbi təhsilə maraq bu tədris ilində də artmışdır. IX sinfi bitirən şagirdlərdən 156-sı Heydər Əliyev adına Hərbi Liseyə qəbul olaraq kursant adını qazanmışdır. Bununla yanaşı, məzunlardan 30-u xüsusi təyinatlı ali məktəblərə qəbul olmuşdur. Ümumilikdə, 2020-2021-ci tədris ili üzrə ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla, 2882 məzun bitirmiş, onlardan 2470-i, yaxud 86 faizi ali məktəblərə qəbul imtahanlarında iştirak etmişdir. İmtahanda iştirak edən məzunlardan 1612-si, yaxud 65 faizi ali təhsil müəssisələrinə qəbul olmuşdur. Muxtar respublika üzrə 261 məzun 500-dən yuxarı bal toplamışdır ki, onların da 155-i, yaxud 60 faizi qızlar, 106-sı, yaxud 41 faizi isə oğlanlardır. Yüksək bal toplayan məzunlardan 57-si Naxçıvan şəhər, 35-i Şərur, 44-ü Babək, 21-i Ordubad, 32-si Culfa, 15-i Kəngərli, 21-i Şahbuz, 6-sı Sədərək rayonunun, 30-u isə Təhsil Nazirliyinə birbaşa tabe ümumtəhsil məktəblərinin məzunlarıdır. Muxtar respublikanın ali təhsil müəssisələrində yaradılan müasir infrastrukturun nəticəsidir ki, yüksək nəticə göstərən məzunların 150-si, yaxud 58 faizi muxtar respublikanın ali təhsil müəssisələrinə qəbul olmuşdur. Təhsilə göstərilən qayğının nəticəsidir ki, 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini tam orta təhsil bazasından bitirən məzunlardan 17-si “Qızıl”, 17-si “Gümüş” nişana, 41-i fərqlənmə attestatına, ümumi orta təhsil bazasından isə 121-i fərqlənmə attestatına layiq görülmüşdür. Muxtar respublika üzrə şagirdlərdən 26-sı Respublika fənn olimpiadasının qalibi olmuşdur. Rəhman Məmmədov muxtar respublika təhsilinin inkişafına göstərilən diqqət və qayğıya görə bütün təhsil işçiləri, müəllim, tələbə, müdavim və şagirdlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Valideyn Aytən Quliyeva çıxış edərək demişdir: “Müəllimi olduğum Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb Ali Məclis Sədrinin qayğısı ilə 2019-cu ildə yenidən qurulmuş, məktəbimiz kompüter, elektron lövhə, dərslik, bədii ədəbiyyat və tədris vəsaitləri ilə təchiz olunmuşdur. 2020-2021-ci tədris ilində məktəbimizi bitirən şagirdlərdən 2-si “Qızıl” nişana layiq görülmüş, 2-si tam orta, 4-ü isə ümumi orta təhsil bazasından olmaqla, 6 şagird fərqlənmə attestatı almış, məzunlardan 39-u ali təhsil müəssisəsinə qəbul olmuşdur. Ali Məclis Sədrinin hər il ali məktəblərə qəbulda yüksək bal toplayan tələbələrlə görüşü övladlarımızı daha yaxşı oxumağa ruhlandırmış, biz müəllim və valideynlərdə isə sabaha cavabdehlik hissini daha da artırmışdır.

Ardı 2-ci səhifədə

Bu gün mən çox sevinirəm ki, övladlarım muxtar respublikada yaradılan müasir təhsil şəraitindən və yaradıcılıq mühitindən səmərəli istifadə edərək uğurlu nəticələr əldə etmişlər. Ali Məclis Sədrinin imzaladığı müvafiq Sərəncamla qızım Səkinə Quliyeva 2015-ci ildə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin VIII sinfində təhsil alarkən musiqi sahəsində fərqləndiyi üçün adı Naxçıvan Muxtar Respublikasının gənc istedadlarının "Qızıl kitabı"na yazılmış və Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşdür. Digər övladım Fatimə Quluzadə isə 2020-2021-ci tədris ilində Respublika Fənn Olimpiadasında Azərbaycan dili və ədəbiyyat fənni üzrə I yerin qalibi olaraq qızıl medalla təltif edilmiş, Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbi "Qızıl" nişanla bitirmiş, qəbul imtahanında 623 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasına qəbul olmuşdur. İstənilən valideyn üçün bundan böyük xoşbəxtlik, bundan böyük sevinc ola bilməz. Bütün bunlar isə muxtar respublikada yaradılan müasir təhsil şəraiti və gələcəyimiz olan gənclərə göstərilən qayğının nəticəsidir". Aytən Quliyeva müəllim və valideynlər adından minnətdarlığını bildirmişdir.

Qəbul imtahanlarında 682 bal toplayan muxtar respublika birincisi İlhamə Novruzova təhsilə göstərilən qayğıya görə məzunlar adından minnətdarlıq edərək demişdir: "Bu gün buraya toplaşan tələbələr ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək nəticələr əldə edərək Ali Məclis Sədri ilə görüşə gəliblər. Muxtar respublikamızda təhsil inkişaf edir. Biz bunu daim hiss etmişik. Məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, yaxşı təhsil almağımız üçün geniş imkanlar yaradılmışdır. Təhsilimi başa vurduğum Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb də qayğı ilə əhatə olunmuş, bütün zəruri tədris avadanlıqları ilə təchiz edilmişdir. Mən "Qızıl" nişanla təhsilimi başa vurmuşam. Qəbul imtahanında 682 bal toplayaraq muxtar respublika birincisi olmuşam. Bununla yanaşı, dünyanın ən tanınmış ingilis dili imtahanı olaraq İELTS-dən imtahan verərək yüksək nəticə göstərmişəm. Kompüter elmlərinə marağım yüksək olduğu üçün bu sahədə yaxşı mütəxəssis olmaq istəyirəm. Buna görə də ADA Universitetinin tədrisi ingilis dilində olan Kompüter elmləri ixtisasına qəbul olmuşam. Söz veririk ki, harada oxumağımızdan və yaşamağımızdan asılı olmayaraq, ümummilli liderimiz Heydər Əliyev irsinin və əməllərinin davamçıları olacağıq".

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayan məzunlara "Naxçıvan: Şərqin əfsanəsi" kitabı və pul mükafatı təqdim olunmuşdur.

Qəbul imtahanında 580 bal toplayan Adil Seyidovun babası Nadir Əliyev minnətdarlıq edərək demişdir: "Mən 1992-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü və partiyanın təsis konfransının iştirakçısı olmuşam. Yeni Azərbaycan Partiyası azadlıq, demokratiya, sülh və inkişaf partiyasıdır. Tarix sübut etdi ki, Azərbaycan xalqını işıqlı gələcəyə aparan bir yol vardır. Bu da ulu öndər Heydər Əliyevin yoludur. Bu yolun muxtar respublikada Ali Məclis Sədri tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, hər kəs rahat yaşayır, fəaliyyət göstərir, gələcəyimiz olan gənclər yüksək səviyyədə təhsil alırlar. Valideyn kimi bütün bunlarla fəxr edirik".

564 bal toplayan Nurlan Məmmədovun anası Mehriban İmanova da minnətdarlıq etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Payız-qış mövsümünə hazırlıqlar davam edir



Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirəni cəmiyyətin sədri Yəhya Allahverdiyev açaraq bildirib ki, muxtar respublikada əkinəyararlı torpaq sahələrinin su təminatını yaxşılaşdırmaq, yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etməklə suvarılan sahələrin genişləndirilməsini təmin etmək, suvarılan torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq üçün 2021-ci ilin birinci yarısında meliorasiya və irriqasiya işlərinin miqyası artırılaraq bütün mövcud imkanlar səfərbər edilib, istismar, təmir və tikinti işləri həyata keçirilib.

Qeyd olunub ki, muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlara maksimum 249,9 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 203,1 milyon kubmetr suvarma suyu verilib, bunun müqabilində təkrar suvarma ilə 170317 hektar torpaq sahəsi su ilə təmin olunub. Muxtar respublikada torpaq sahələrində su təminatının yaxşılaşdırılması, suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su itkisinin qarşısının alınması üçün rentabelli suvarma şəbəkələrinin qurulmasına, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilib.

Vurğulanıb ki, rayon Meliorasiya və Su Təsərrüfatı idarələri tərəfindən rayon mərkəzi və ətraf kəndlərdə əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması üçün mövcud xətlər və hidrotexniki qurğular, subartezian quyuları vaxtında təmir olunmalı, yeni su xətlərinin çəkilməsi davam etdirilməli, çəkilmiş su xətlərində təzyiqin normada saxlanılması, qəzalara yol verilməməsi üçün profilaktik tədbirlər həyata keçirilməli, baş vermiş qəza hallarının dərhal aradan qaldırılması üçün qəza briqadaları yaradılmalı, işin səmərəli olması üçün briqadalar lazımi avadanlıq, maşın-mexanizmlərlə təmin edilməlidir. Eyni zamanda payız-qış mövsümündə idarələr tərəfindən vətəndaşlarla vaxtaşırı maarifləndirici söhbətlər aparılmalı, şaxtalı günlərdə yerinə yetirilməli işlər haqqında təlimatlandırılmalıdırlar. Payız-qış mövsümündə binaların girişində su xətlərinin və sayğacların donmasına qarşı tədbirlər görülməlidir. Fərdi evlərdə sayğacların yerləşdiyi quyuların qapaqlarının alt hissəsi izolyasiya olunmalıdır. Payız-qış mövsümünə hazırlıq işləri vaxtında sona çatdırılmalı, suvarma mövsümü bitdikdən sonra su nasoslarına baxış keçirilməli, nasoslar dayandıqdan sonra onların vakuum sistemləri boşaldılmalı, nasosların üst qapaqları açılmalı, nasaz olan avadanlıqlar yenisi ilə əvəz edilməli, kabel ötürücü kanallarda təmizlik işləri aparılmalıdır. İçməli su və kanalizasiya ilə əlaqəli fasiləsiz işləməsi nəzərdə tutulan nasos stansiyalarda lazımi şərait yaradılmalı, maşinistlər enerji kəsintiləri zamanı donmanın qarşısını almaq üçün yerinə yetirilməli tədbirlər haqqında təlimatlandırılmalıdırlar. Dezinfeksiyaedici məhlulların və digər ehtiyat hissələrin tədarükü görülməlidir. Həmçinin əhaliyə verilən içməli suyun keyfiyyəti ciddi nəzarətdə saxlanılmalı, su ehtiyatlarından səmərəli istifadə olunmalı, hazırlıq işlərinə indidən xüsusi diqqət yetirilməli, lazımi material ehtiyatı yaradılmalıdır. Payız-qış mövsümünə qədər mövcud kaptajlara, kəhrizlərə, subartezian quyulara içməli su və kanalizasiya sistemlərinə nəzarət edilməli, suların keyfiyyəti yoxlanılmalı, təmizlənməli, sanitar-gigiyenik qaydalara uyğunlaşdırılmalı, su obyektlərindən düzgün istifadə edilməsi üçün maarifləndirici söhbətlər aparılmalıdır. Kanalizasiya şəbəkələrində mütəmadi olaraq yoxlamalar aparılmalı, nəzarət quyularına baxış keçirilməli, zərurət yaranan tədbirlər icra olunmalıdır. Payız suvarma mövsümü başa çatdıqdan sonra su anbarlarına sugətirən kanallar lildən təmizlənməli, kanal və hidrotexniki qurğularda təmir-bərpa işləri başa çatdırılmalı, kanal və arxlarda suyun maneəsiz axını təmin edilməli, son illərdə tikilmiş qapalı suvarma şəbəkələrində suların boşaldılması təmin olunmalıdır. Su ehtiyatlarından səmərəli istifadə edilməsi və əkin sahələrinin su ilə təchizatının yaxşılaşdırılması üçün su anbarlarında, onların suburaxıcı qüllələrində tələb olunan təmir-bərpa işləri görülməli, suvarma mövsümü başa çatdıqdan sonra lazım olan su ehtiyatlarının yaradılması təmin edilməlidir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**✍ Səbuhi HƏSƏNOV**

## Konfrans olub

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayıb, 1972-ci ildə bu filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutuna, 1990-cı ildə isə Naxçıvan Dövlət Universitetinə çevrilib. Bununla da Naxçıvan filialı muxtar respublikada gələcək ali məktəbin təməl daşını qoymaqla, burada yüksəkixtisaslı kadrların yetişdirilməsinə, bütövlükdə, regionun tərəqqisinə öz müsbət təsirini göstərib.



Bu fikirləri Azərbaycan Dövlət Pedaqoji İnstitutunun 100 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə rektor Elbrus İsayev səsləndirib. Rektor universitetin professor-müəllim və tələbə heyətini Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi münasibətilə təbrik edib, müstəqil Azərbaycanın inkişafı yolunda apardıqları məsuliyyətli işlərdə yeni-yeni nailiyyətlər arzulayıb.

Tədbirə onlayn qoşulan Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov diqqətə çatdırıb ki, böyük elmi-pedaqoji kollektivə və çoxminli tələbə kontingentinə sahib olan Azərbaycan Dövlət Pedaqoji Universiteti son 100 il ərzində 160 mindən çox yüksəkixtisaslı müəllim kadrları yetişdirməklə ölkəmizin sosial-mədəni inkişafında mühüm rol oynayıb.

Rektor bildirib ki, Pedaqoji Universitet ölkədə pedaqoji və elmi-pedaqoji kadrların hazırlığını, təkmilləşdirilməsini və ixtisasının artırılmasını həyata keçirən pedaqoji təhsil müəssisələrinin böyük əksəriyyətinin yaradılmasında ilkin baza rolunu oynayıb.

ADPU-nun Elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov, Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev, ADPU-nun Riyazi analiz kafedrasının professoru Məlikməmməd Cəbrayılov, Naxçıvan Dövlət Universitetinin Kimya kafedrasının dosenti Akif Əliyev universitetlə bağlı xatirələrini bölüşüblər.

Sonda Elbrus İsayev yubileyi qeyd olunan ADPU-nun adına sertifikat və hədiyyə təqdim edib.

***Naxçıvan Dövlət Universitetinin Mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Kompleks məşq aparılıb

*Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə birləşmə, hissə və bölmələrində kompleks məşq keçirilib. Şəxsi heyətin sayıqlığını və peşəkarlığını yoxlamaq üçün məşqə ordu aviasiyası da cəlb edilib.*

Kompleks məşqə Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə birləşmə, hissə və bölmələrinin yüksək döyüşə hazırolma vəziyyətinə gətirilməsi ilə başlanılıb. Plana əsasən zenit-raket, radiotexniki və quru qoşunlarının hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı əlaqədə hava düşməninin zərbələrinin dəf edilməsi məşq edilib.

Komandir və döyüş heyətlərinin real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılması vərdişlərinin təkmilləşdirilməsi məqsədilə hava düşmənini təqlid edən ordu aviasiyası praktik uçuşlarla məşqlərə cəlb edilib. Yer hədəflərinə müxtəlif taktiki fənd və üsulların tətbiqi ilə məşq edən pilotlar tərəfindən hava hücumundan müdafiə vasitələrinin təsirinin dəf edilməsi üçün mürəkkəb pilotoji manevrlər yerinə yetirilib.

Radiotexniki bölmələrin kəşfiyyat vasitələrilə düşmən hədəfləri aşkarolunma həddinə çatdıqda əldə olunmuş məlumatlar komanda məntəqəsinə ötürülüb. Döyüş heyətləri tərəfindən hava hücum vasitəsinin dövlət hava sərhədinə uçub çatma vaxtı və zenit-raket divizionlarının məhvetmə zonasına girmə ardıcıllığı üzrə hesabatlar aparılıb.

Düşmənin hava hücum vasitələri növbətçi qüvvələrin 1 nömrəli hazırlığa gətirilmə həddinə çatdıqda zenit-raket bölmələrinə 1 nömrəli hazırlıq elan olunaraq alınmış döyüş tapşırığına əsasən zenit-raket bölmələrinin komanda məntəqəsi hədəflərin aşkarlanması, izlənməsi və məhv edilməsi üzrə fəaliyyətləri yerinə yetirib. Döyüş heyətləri tərəfindən zenit-raket bölmələrinin raket ehtiyatının təyin olunmuş normaya çatdırılması üçün buraxıcı qurğulara döyüş raketləri doldurulub. Quru qoşunlarının hava hücumundan müdafiə bölmələri aşağı və ən aşağı hündürlüklərdə fəaliyyət göstərən hava düşməninin aşkarlanması, müşahidə və məhv edilməsi üzrə döyüş tapşırıqlarının icrasına davam ediblər. Ehtiyatda olan zenit-raket bölmələri ümumqoşun birləşmələrinin hava hücumundan müdafiəsini təmin etmək məqsədilə təyin olunmuş start mövqelərinə yerdəyişməni həyata keçiriblər.



Obyektlərin və birləşmələrin hava hücumundan müdafiəsini təmin edərkən qorunan ümumqoşun birliklərinin döyüş fəaliyyətlərindən asılı olaraq zenit-raket qoşunlarının hissə və bölmələri ilə quru qoşunlarının hava hücumundan müdafiə bölmələri arasında 3 mərhələdən ibarət qarşılıqlı əlaqə yaradılıb.

Beləliklə də real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılmasını kompleks şəkildə məşq edən bölmələr yüksək peşəkarlıq və ustalıq nümayiş etdiriblər.

**Nəriman NƏCƏFOV**

## Naxçıvanda keçirilən *"Marş İrəli"* layihəsi sona çatıb

*Layihənin sonuncu günü iştirakçıların hərbi paradı, Naxçıvan Televiziyasının baş redaktoru Ruhiyyə Rəsulovanın təqdimatında "İnformasiya müharibəsi" adlı təlim, maneəli qaçış və avtomatla virtual atıcılıq yarışları reallaşıb.*



Tədbirin bağlanış mərasimində aparıcı bildirib ki, muxtar respublikamız gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi, fiziki dözümlülüyün artırılması, rəqabətədavamlı və sağlam gəncliyin inkişafına xidmət edən "Marş İrəli" adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümünə uğurla ev sahibliyi etdi. 5-9 sentyabr tarixlərini əhatə edən layihə 100 nəfər fəal gənci öz ətrafında topladı. Onların hərb sənətinə marağını artıracaq rəngarəng tədbirlər təşkil olundu. Tariximizin və milli-mənəvi dəyərlərimizin dərindən öyrənilməsi məqsədilə müxtəlif ekskursiyalar, müzakirə və təqdimatlar reallaşdı. "Əlbəyaxa döyüş", "İnformasiya müharibəsi" və ən əsası hərbi-vətənpərvərlik mövzularını əks etdirən təlimlər, şübhəsiz ki, gənclərimizin bilik və bacarıqlarının artırılmasına hesablanmışdı. Qeyd olunub ki, 5 gün boyunca Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti, təşkilatçı qurumlarla birgə layihənin uğurlu icrası üçün maksimum səylə çalışdı. Hərbi silah və texnikalarla tanışlıq, pilotların nümunəvi uçuşları, eləcə də əsgər və zabitlərimizin peşəkar döyüş təlimləri "Marş İrəli"yə xüsusi rəng qatdı.

"İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlı layihənin Naxçıvanda reallaşan 4-cü mövsümünün öncəkilərdən fərqləndiyini diqqətə çatdırıb, təşkilati dəstəyə görə minnətdarlığını ifadə edib. Təşkilatçı qurumlara "Təşəkkürnamə"lər təqdim edilib. Sonra mükafatlandırma mərasiminə başlanılıb. Yekun nəticələr 5 gün ərzində təşkil olunan təlimlər, yarışlar və komanda təqdimatlarında fərqlənmə, qalibiyyət, ümumilikdə, nizam-intizam, aktivlik və dözümlülük meyarlarına əsasən hesablanıb. Əldə etdiyi uğurlarla digərlərini geridə qoyan "Şahbulaq" komandası qalib adına layiq görülüb. "Murov" və "Kərkicahan" müvafiq olaraq 2-ci, 3-cü sıralarda qərarlaşıblar.

Layihə iştirakçılarına sertifikatlar verilib. İlk üçlükdəki kollektivlər kubokla mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**“Şərq qapısı” – 100**

# “Şərq qapısı” qəzetinin fəaliyyəti Azərbaycan mətbuatı üçün bir nümunədir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı və sərəncamla təsdiq olunan Tədbirlər Planınına əsasən qəzetin yubiley tədbirləri dövlət səviyyəsində qeyd edilir. Peşə fəaliyyətimin 12 ilinin “Şərq qapısı” qəzeti ilə bağlı olduğundan qürur duyur və qocaman mətbu orqanın “məzunu” kimi düşüncələrimi, xatirələrimi dəyərli qəzet oxucuları ilə də paylaşmaq istəyirəm.***



Bir təcrübə məktəbi saydığım “Şərq qapısı” qəzeti ilə ilk tanışlığım 2004-cü ildə Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının birinci kursunda təhsil alanda olmuşdu. Məlumatım var idi ki, müstəqillik ideyaları uğrunda “Şərq qapısı” qəzeti hər zaman ön cərgələrdə olub. Ulu öndər Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda yaşayıb siyasi fəaliyyətlə məşğul olarkən görkəmli dövlət xadiminin çıraq işığında gecəli-gündüzlü gərgin əməyinin bəhrəsi olan milli dirçəlişimizlə bağlı qəbul edilən qərarlar ilk olaraq “Şərq qapısı” qəzeti vasitəsilə Azərbaycana yayılırdı. Tarixin müxtəlif dönəmlərində siyasi, iqtisadi çətinliklərə, yaradılan süni maneələrə baxmayaraq, fəaliyyətini dayandırmayan və dövrün çətinliklərinə sinə gərən “Şərq qapısı” qəzeti ilə əməkdaşlıq etmək jurnalist olmaq istəyən hər bir gənc kimi mənim də arzularımdan biri idi. Kiçik informasiyalar yazmaqla qəzetlə əməkdaşlığa başladım. İlk dəfə qəzetdə yazımı görəndə həmin gün gecə səhərədək yatmayıb, dəfələrlə qəzetdəki imzama baxdığımı indi də yaxşı xatırlayıram. 2005-2016-cı illərdə qəzetdə müxbir, şöbə müdiri və məsul katib vəzifələrində çalışdım. Burada mənim kimi başqa tələbələr də fəaliyyət göstərirdilər. O illərdə Naxçıvan əsl tikinti meydançasını xatırladırdı. Hər yerdə quruculuq işləri görülürdü. Təsəvvür edin, bu gün yanından ötdüyümüz o müasir binaların təməlatma, tikinti prosesləri ilə bağlı yazılarda Naxçıvan Dövlət Universitetinin tələbələrinin də imzaları var idi. Bunu böyük xoşbəxtlik və fəxarət sayıram. Ona görə ki, biz həm də yenidən qurulan Naxçıvanın şahidi olan gənc müxbirlər idik. Bütün səmimiyyətimlə deyə bilərəm ki, gecəsi, gündüzü, iş saatı bəlli olmayan bir qurumda çalışmaq heç bir gənci qorxutmurdu. Yazılarımızın qəzetdə dərc olunması üçün bəzən “dava” da edirdik. Dərsdən sonra hamı evə gedərkən biz qaça-qaça işə gəlib yazı yazırdıq, məqaləmizin qəzet səhifələrinə çıxmasını səbirsizliklə gözləyirdik. Hətta gecə saatlarına kimi qəzetdə həftədə bir dəfə növbətçi düşürdük. Xüsusi vurğulamalıyam ki, media sahəsində ən məsuliyyətli iş qəzetdir. Qəzetçi əməyi çox çətin və şərəfli əməkdir. Heç kimin hiss edə bilmədiyi və bəlkə də, çox az adamın qiymətləndirdiyi peşədir. Bəs gəncləri bura bağlayan nə idi? Heç düşünmədən deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qəzetə, mətbuata, xüsusilə də gənclərə göstərdiyi qayğı. Məhz bu qayğı və diqqət nəticəsində ötən müddətdə qəzetdə onlarla jurnalist yetişdi, jurnalist peşəkarlığına yiyələndi. Hazırda onların çoxu ölkəmizin nüfuzlu mətbuat orqanlarında çalışır, yaradıcılıq fəaliyyətlərini davam etdirirlər. Bu gün qocaman mətbuat orqanının məzunları media sahəsinə rəhbərlik edirlər. Xüsusilə qeyd etməliyəm ki, qəzetçi jurnalistlərin yetişməsində və formalaşmasında muxtar respublika rəhbərinin mətbuat bayramlarında, “Şərq qapısı” qəzetinin yubiley tədbirlərində jurnalistlərlə görüşləri, verdiyi tapşırıq və tövsiyələri mühüm rol oynayıb. Bütün bunlar bizi bu peşəyə daha da bağladı. Biz peşəmizi öyrənməklə yanaşı, bu qəzet vasitəsilə Vətən yanğısı və sevgisi ilə həyata keçirilən məqsədyönlü tədbirlərin, düzgün idarəçiliyin, Naxçıvanın hər bir yurd yerinə sonsuz məhəbbətdən yaranan səmərəli dövlətçilik fəaliyyətinin şahidlərinə çevrildik. 2006-cı ildə “Şərq qapısı” qəzetinin 85 illik yubileyində biz gənclər QURUCU RƏHBƏRİN görüşündə idik. Cənab Sədrin milli maraqların və dövlətçilik prinsiplərinin əsas tutulması istiqamətindəki tapşırıqları və digər tövsiyələri bu gün də biz jurnalistlər özümüzün iş planı sayırıq. Həmin yubiley tədbirinə muxtar respublika rəhbərinin ***“Əlinə qələm götürən şəxs qələminə və sözünə hörmət etməlidir”*** fikri artıq media işçilərinin fəaliyyətinin əsas prinsiplərinə çevrilib. Biz o görüşlərdə öyrəndik ki, yazılarımızla gənclərimizdə vətənpərvərlik, yurd sevgisi hisslərinin və milli duyğuların güclənməsinə, milli dəyərlərin, adət-ənənələrin qorunmasına, xalq yaradıcılığının, milli mədəniyyətin təbliğinə diqqəti artırmağa çalışmalıyıq. Məhz bu mükəmməl ideoloji xətlə həftədə 5 dəfə işıq üzü görən “Şərq qapısı” qəzeti Azərbaycan mətbuatında özünəməxsus yer tutdu, nüfuzlu və sanballı mətbuat orqanlarından biri kimi öz fəaliyyətini bu gün də davam etdirir. Bu isə, ilk növbədə, yuxarıda da qeyd etdiyimiz kimi, qəzet işinə gündəlik rəhbərlik edən, onun yüksək səviyyədə çıxmasına hər cür şərait yaradan Ali Məclis Sədrinin diqqət və qayğısıdır. Bu gün “Şərq qapısı” qəzeti dünyada nəşr edilən heç bir qəzetdən geri qalmır və qəzetin yüksək poliqrafik keyfiyyətlə nəşr olunması üçün müasir mətbəə avadanlıqları quraşdırılıb.

Bəli, “Şərq qapısı” qəzeti Naxçıvanın canlı salnaməsidir, zamanın özü haqqında monoloqdur. Daha dəqiq desək, zamanın güzgüsüdür. O güzgü ki Naxçıvanın həm dünənini, həm də bu gününü bizə açıq-aydın göstərir. Naxçıvanın dünənini öyrənmək baxımından “Şərq qapısı” ən sanballı mənbədir. Çox uzağa getməyək. Oxuculara qəzetin “Dünən və bu gün” rubrikası yaxşı tanışdır. Bu rubrikada gedən müqayisəli, təhlili yazılardan görürük ki, Naxçıvan bir vaxtlar hansı çətinliklərlə üzləşib. Təhsil, mədəniyyət, iqtisadiyyat və başqa sahələrlə bağlı yaşlı həmkarlarımızın qələmə aldığı yazıları ürəkağrısı ilə oxuyuruq. “Şərq qapısı” qəzeti o dövrün aclıq-səfalətlərini, narkotikə qurşanan gənclərini, bir sözlə, zamanın reallıqlarını bu gün bizlərə xatırladır. Sirr deyil ki, 1995-ci ildən sonra qəzetin, sözün əsl mənasında, qızıl dövrü başlanıb. Müstəqillik illərində “Şərq qapısı” qəzetinin ilk yubileyi 1996-cı ildə keçirilib. “Şərq qapısı”nın bundan sonrakı dövrünü inkişaf və tərəqqi dövrü adlandıranlar yanılmırlar. Üst-üstə dəstələnmiş qəzetin hər bir sayında blokadanın yaratdığı çətinliklərə baxmayaraq, yenidən qurulan Naxçıvanı görürük. Bu səhifələrdə qəzet müxbirləri dərsdən yayınan uşaqlardan, tozlu küçələrdən, çörək növbələrindən, neft sobaları ilə qızdırılan məktəblərdən, orduda baş alıb gedən fərarilikdən deyil, müasir təhsil ocaqlarından, yüksək bal toplayan gənclərdən, İkinci Qarabağ müharibəsində tarix yazan şəhidlərimizdən, qazilərimizdən, Azərbaycan Respublikası Prezidentinin apardığı uğurlu daxili və xarici siyasətdən, Azərbaycan Ordusunun qazandığı zəfərdən, Naxçıvanın müasirliyə qovuşan kəndlərindən, bir zamanlar qaranlıq içində yaşayan Naxçıvandan deyil, indiki işıqlı məmləkətlərindən fəxarətlə söhbət açırlar. Dünyanın diqqət mərkəzində, inkişaf və tərəqqisinin yeni müstəvisində olan Naxçıvanın beynəlxalq elm və mədəniyyət tədbirlərinə ev sahibliyi etməsinin salnaməsini yaradırlar. Bir sözlə, “Şərq qapısı” qəzetinin indiki müxbirlərinin bəxtinə doğma diyarımız Naxçıvanın inkişafını və tərəqqisini görmək, bu reallıqları günün yaddaşına çevirmək kimi müqəddəs bir vəzifə düşüb.

Ətrafına çox sayda gənc jurnalistlər toplayan “Şərq qapısı” bu gün qəzetçilik, yetkin jurnalistika məktəbidir. Qəzetin gənc müxbirləri Naxçıvan Muxtar Respublikasının gələcəyinə hesablanmış nəhəng tədbirlərin, layihələrin əhəmiyyətini, mahiyyətini həm bu günün oxucusuna, həm də gələcək nəsillərə çatdırılması üçün əllərindən gələni əsirgəmirlər. Açıq etiraf edək ki, sayt və qəzet bolluğunda dövlətçiliyimizin və müstəqilliyimizin təbliğatçısı kimi “Şərq qapısı” ilk sıralarda özünə yer edib. Azərbaycanda nəşr olunan qəzetləri təhlil etsək, “Şərq qapısı” qəzeti kimi az qəzet tapmaq olar ki, dilimizin bütün qayda-qanunlarına əməl etsin. Qəzetin yaradıcı əməkdaşları hər məqaləsinin məsuliyyətini dərk edir, yazısının necə qarşılanacağının həyəcanı ilə yaşayırlar. Axşam, hətta gecə saatlarında, bayram günlərində belə, “Şərq qapısı” qəzetinin otaqlarının işıqlarının yandığının çox şahidi oluruq. Yorulmadan, gecəli-gündüzlü qəzet çıxarmaq, materialları yüksək səviyyədə redaktə, korrektə etmək, gözəl dizayn ilə oxucuya çatdırmaq, doğrudan da, asan iş deyil. Bir hərf səhvinin belə, narahatlığını yaşayan yazı-pozu adamlarının fəaliyyəti Azərbaycan mətbuatı üçün bir nümunədir.

Sağlam məfkurəli ideyası ilə doğma Naxçıvanımızın real salnaməsinə çevrilən qəzetin adı təkcə coğrafi məzmun kəsb etmir. O, Şərqin qapısının 100 yaşlı “Şərq qapısı”dır. Blokadaya alınan Naxçıvanın bugünkü mənzərəsini gələcək nəsillərə çatdırmaq kimi böyük missiyanı şərəflə yerinə yetirən canlı tarix... Mətbuat işçilərinin salnaməşdirdiyi tarixi yazan isə Liderdir. 100 illik “Şərq qapısı” qəzetinin müstəqillik illərinə işıq tutan hər səhifəsi də əsl liderin xalqına, Vətəninə, torpağına məhəbbətinin tərcümanı və yolyoldaşıdır. Bu gün o yol işıqlıdır. Şərqin qapısından bütün dünyaya səs salan, dünəninə sahib çıxan, bu gününü şövqlə yaşayan, sabaha əminliklə baxan söz karvanıdır. Bu karvanın yolu uzundur, hələ neçə yüzilliklərboyu dünyanı dolanacaq...

*Əziz və doğma kollektivim! Bu qəzet bizim qəzetdir, hamımızın qəzeti. Media sahəsində qazandıqlarımız üçün daim minnətdar olduğumuz doğma qəzetə “100 yaşın mübarək!” – deyirik. Qəzetin baş redaktoru başda olmaqla, ideoloji cəbhənin bütün “əsgərlərini” təbrik edir, onlara yeni yaradıcılıq uğurları arzulayıram.*

**Sara ƏZİMOVA**
***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü***

# Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması avqust ayında da diqqətdə saxlanılmış, bir sıra görüş, seminar, tədbir, monitorinq keçirilmiş və ekskursiyalar təşkil edilmişdir.*

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən mağazalarda qadınların əl işləri satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi “İcma Quruculuğu Təşəbbüsləri Proqramı” çərçivəsində “Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması” layihəsi ilə bağlı tədbir keçirilmişdir. Tədbirdə bildirilmişdir ki, layihə çərçivəsində muxtar respublika üzrə 28 sağlamlıq imkanları məhdud və sosial qayğıya ehtiyacı olan qadın təlimlərdə iştirak etmişdir. Təlimin sonunda iştirakçılar tərəfindən biznes planlar hazırlanmış, ən uğurlu biznes-plan hazırlayıb təqdim edən qadınlara potensiallarına uyğun sahələr üzrə sərmayə kapitalları verilmişdir. Müvafiq layihə 2021-ci ilin aprel-avqust ayları ərzində həyata keçirilmişdir. Layihənin sonunda 20 nəfərə maksimum 500 Amerika Birləşmiş Ştatları dolları sərmayə kapitalı verilməsi nəzərdə tutulmuşdur. Lakin qadınların sahibkarlığa maraqları nəzərə alınaraq 26 nəfərə sərmayə kapitalı verilmişdir. Ümumilikdə, layihə çərçivəsində verilən sərmayə kapitallarının dəyəri 17 min manat təşkil etmişdir. Sərmayə kapitalı almış qadınlar üçün öncə VÖEN-lər açılmış və alacaqları vəsaitlər bank hesablarına köçürülmüşdür. Layihədə iştirak edən qadınlarla Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən müqavilələr bağlanmışdır. Qadınlara həmin sərmayə kapitallarının 70 faizi ailə təsərrüfatını genişləndirmək və ya qurmaq, 30 faizi isə dərzilik, xalçaçılıq, dekorativ-tətbiqi sənət, silahsazlıq, toxuculuq sahələri ilə məşğul olmaları üçün verilmişdir. Tədbirin sonunda Azərbaycan Mikromaliyyə Assosiasiyası ilə qadınlar arasında bağlanmış müqavilələr təqdim edilmiş, həmçinin qadınlara verilmiş sərmayə kapitalının dəyərində alınmış aktivlərin bəziləri nümayiş olunmuşdur.

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində “Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması” layihəsinin iştirakçısı olmuş qadınlarla görüşmüş, layihənin icrası barədə ətraflı məlumat verilmişdir. Görüşdə sərmayə kapitalı alan 12 qadın iştirak etmişdir. Layihə çərçivəsində keçirilən tədbirlərdən, sərmayə kapitalı əldə etmiş qadınların qurduqları təsərrüfat sahələrinin fotolarından, qadınların aldıqları sərmayə kapitalı dəyərində əldə etdikləri aktivlərin bəzilərindən, qadınların əl işləri və digər məhsullardan ibarət sərgi təşkil olunmuşdur. Tədbirdən sonra sərmayə kapitalı alan 2 qadının iş yeri və təsərrüfat sahəsində monitorinq keçirilmiş və nöqsan aşkarlanmamışdır.

Naxçıvan Muxtar Respublikasında tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Şəhər və rayon icra hakimiyyətlərindən aid kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilmiş, təhlili aparılmış və bununla bağlı müvafiq tədbirlər görülür. Əlavə olaraq sərmayə kapitalı verilmiş qadınlarla bağlı kataloqun hazırlanması üçün lazımi tədbirlər görülür.

Kəngərli rayonunda yaşayan sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü olan qadınlar üçün toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmiş, istedadlı toxucu qadın Gülsüm Kəngərli əyani vasitələrdən istifadə etməklə iştirakçılara toxuculuq peşəsinin sirlərini öyrətmişdir. Təlimdə 25 qadın iştirak etmişdir.

Muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 148 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı müvafiq müəssisələrin rəhbər şəxslərinin iştirakı ilə maarifləndirici seminar keçirilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil məktəblərinə, məktəbəqədər və məktəbdənkənar müəssisələrə cəlbi ilə bağlı uşaqların evlərində monitorinq keçirilmişdir. Monitorinq çərçivəsində 7-si Naxçıvan şəhəri, 13-ü Babək rayonu, 14-ü Şərur rayonu, 5-i Kəngərli rayonu, 6-sı Sədərək rayonundan olmaqla, 45 uşaqdan 29-u təhsilə cəlb olunmuş, 15-nin sağlamlığının təhsil almasına imkan vermədiyi, 1-nin isə ailəsi ilə birlikdə hazırda muxtar respublikada yaşamadığı məlum olmuşdur.

Yay tətili günlərində asudə vaxtlarının səmərəli təşkili məqsədilə bir sıra tədbirlər görülmüş, avqust ayında müvafiq kateqoriyadan olan uşaqlar Heydər Əliyev Muzeyi ilə tanış olmuş, “Saat Meydanı” Turistik İstirahət Mərkəzində gəzinti təşkil edilmiş, cizgi filminə baxış olmuş, onlar üçün əyləncəli oyunlar keçirilmiş, “Badamlı” Mineral Sular Zavoduna ekskursiya zamanı uşaqlar istehsal prosesini yaxından izləmiş, onlara hədiyyələr təqdim olunmuş, Naxçıvan Dövlət Film Fondunda vətənpərvərlik mövzusunda “Ağ atlı oğlan” filmi nümayiş etdirilmiş, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Nağı İsmayılzadənin “Ağca və Bozca” tamaşası göstərilmişdir. Keçirilən ekskursiyalarda müvafiq kateqoriyadan olan 91 uşaq iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət etmək məqsədilə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 1 uşağın evində monitorinq keçirilmişdir. “Muzey günləri” çərçivəsində komitənin əməkdaşları Yusif Küseyir oğlu türbəsində olmuşlar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## “Marş İrəli” vətənpərvər gəncliyi növbəti zəfərlərə səsləyəcək yeni layihələrin təməlini qoydu



*Ölkə gənclərində vətənpərvərlik ruhunun gücləndirilməsi, fiziki dözümlülüyün artırılması məqsədilə sentyabr ayının 5-də start verilən “Marş İrəli” hərbi simulyasiyalı layihənin dördüncü mövsümünün sonuncu günündə iştirakçıların diyarımız və layihə haqqındakı fikirləri maraq doğurur.*

İlk həmsöhbətimiz ***Çinar Hacıyev*** deyir ki, bu gün artıq “Marş İrəli” layihəsinin sonuna çatdıq. Bunun üçün, həqiqətən, çox təəssüflənirəm. Beş günün bəxş etdiyi fiziki, mənəvi gözəlliklər haqqında çox danışa bilərəm. Ən başda ona görə şad oldum ki, Naxçıvan kimi səliqə-sahmanın, gözəlliyin və sakitçiliyin hökm sürdüyü bir şəhərdə qonaqpərvər insanları tanımaq fürsəti qazandım. Bu məni çox sevindirdi. Həqiqətən də təlim çərçivəsində yaradılan qayda-qanun sanki əsgərlik təəssüratı yaradır. Keçirilən təlimlər, komando oyunları, qrup məşqləri insanın fiziki gücünə güc qatmaqla yanaşı, onda ruh yüksəkliyi də oyadır. Hər bir təlimin ayrıca üstünlüyü var. Amma məndə ən çox maraqdoğuran təlim məqsədilə gecəyarısı verilən həyəcan siqnalı oldu. İnanırsınızmı, siqnalı eşitdiyim anda özümü sanki müharibədə hiss etmişdim. O səs məni, qrup yoldaşlarımı və digər layihə iştirakçılarını şirin yuxudan oyadıb, bir sırada topladı. Bununla yanaşı, fiziki təlimlərin böyük nizam-intizamla keçirilməsi, qrup daxilində qayda-qanunun hökm sürməsi burada maraqlı bir ortam yaratdı. Layihənin verdiyi başlıca mənəvi zövqlər isə burada qazandığımız dostluq münasibətləri oldu. Hərb sənətində adını hər dəfə eşitdiyimiz “Hamı bir nəfər, bir nəfər hamı üçün!” şüarının əyani sübutunu mən burda gördüm, yaşadım. Buradan ayrılası olsaq da, “Marş İrəli” layihəsinin həmişə ağlımda şirin xatirə kimi qalacağına inanıram. Son olaraq bütün gənclərimizə müraciət edərək demək istəyirəm ki, əllərindən gəldiyi qədər bu cür təlimlərdə fəal iştirak etsinlər. İlk əvvəl tərəddüd etsəm də, sonra məndə belə bir inam formalaşdı ki, bu təlim qazandığımız böyük Qələbədən sonra bizə aşılanan mənəviyyatın, ruh yüksəkliyinin təminatçısı olacaq. Düşündüklərim təsdiqini tapdı. İnanıram ki, bundan sonra da fəal bir gənc kimi çalışdığım qədər belə təlimlərdə iştirak edəcəyəm.

“Marş irəli” layihəsi mənim ilk təlim təcrübəm idi”, – deyən həmsöhbətimiz ***Almaz Abdullayeva*** bildirdi ki, məktəbdə oxuduğum vaxtlarda bir çox təlimlərdə, layihələrdə iştirak etsəm də, “Marş İrəli” hərbi simulyasiyalı layihə mənim yaddaşımda özünəməxsus iz qoydu. Düşünürəm ki, belə layihələrin həqiqətən də biz gənclərə qazandırdığı üstünlüklər çoxdur. Beş gün müddətində bütün təlim iştirakçılarının qayda-qanunlara tam şəkildə tabe olması, ard-arda oyunların, fiziki məşqlərin keçirilməsi vətənpərvər ruhda gənclik formalaşdırmanın ən gözəl nümunəsidir. Artıq layihə başa çatdı. Təlimə qatıldığım ilk günlərdə bu qədər maraqlı və mənalı vaxt keçirəcəyim ağlımın ucundan belə, keçməzdi. Amma indi təəssüf hissi keçirirəm ki, digər “Marş İrəli” layihələrində iştirak edə bilməmişəm. Bəlkə də, Naxçıvanın mühiti buranı belə maraqlı və səmimi edib. Amma tam əminliklə deyə bilərəm ki, bundan sonra belə layihələrin daimi və fəal iştirakçısı olacağam. Bu günlərdə bir çox maraqlı xatirələrim də olub. Onlardan da söhbət açmaq istəyirəm. Sözsüz ki, yurdumuzun hər daşı, torpağı əzizdir, bizim üçün doğmadır. Bu mənada, hər bir diyarın özünəməxsus milli mentaliteti və xüsusiyyətləri var. Naxçıvanın insanları isə qayğıkeşlikləri, səmimi münasibətləri yaddaşlarımızda yaşayacaq. Keçirilən



ekskursiyalarda isə diqqətimi cəlb edən Döyüş şöhrəti Muzeyi ilə tanışlıq oldu. Bakıda Hərbi Qənimətlər Parkında da olmuşam. Biri rəşadətli Ordumuzun qazandığı əbədi Zəfəri, digəri isə dəyanətli Azərbaycan Ordusunun gücünü təmsil edir. Buradan qayıtdıqdan sonra bütün müsbət təəssüratlarımı yoldaşlarıma, rəfiqələrimə danışacağam. İnanıram ki, onlar da mütləq növbəti layihələrdə iştirak edəcək, əsl Azərbaycan qadını, gənc vətənpərvər kimi öz iradələrini nümayiş etdirəcəklər. Amma bircə arzum var ki, növbəti təlimimiz Qarabağda, Şuşada keçirilsin. Bəlkə də, bir gənc kimi həyatda ən böyük arzum, istəyim budur desəm, yanılmaram.

Növbəti həmsöhbətimiz ***Elnar Məmmədov*** deyir ki, Naxçıvan öz qüdrətini, vüqarını başıqarlı dağlarından alıb. Burada yoldaşlarımızla etdiyimiz maraqlı söhbətlərin əsasında elə məhz Naxçıvanın təbiət gözəllikləri dayanırdı. Həqiqətən də bir çox maraqlı, gəzib-görməli yerləri ilə Naxçıvan bu yurda üz tutanların daim marağına səbəb olur. Həmişə buraya istirahət üçün gəlməyi planlaşdırsam da, ağlıma belə gəlməzdi ki, bir layihənin iştirakçısı kimi burada olacağam. Beşgünlük layihə sona çatdı. Həm sevincliyəm, həm də təəssüflənirəm. Sevincliyəm ona görə ki, ailəm üçün darıxmışam, amma bu mühitdən də ayrılmaq istəmirəm. Qazandığımız dostluqlar, əldə etdiyimiz maraqlı və mənalı təcrübələr, biliklər insanın dünyagörüşünə çox



müsbət təsir bağışlayır. Bir şeyi də qeyd edim ki, bu gün həm bir Azərbaycan gənci, həm də müstəqil bir dövlətin vətəndaşı kimi şadam, sevincliyəm ki, rəşadətli Ordumuzun əldə etdiyi zəfər hər birimizin simasında xoşbəxtlik yaratdı. Bunun nəticəsidir ki, dövlətimiz tərəfindən biz gənclərin vətənpərvər ruhda formalaşması üçün bir sıra silsilə tədbirlər keçirilir. Bu mənada, həmin tədbirlərin davamı kimi təşkil olunan “Marş İrəli” hərbi simulyasiyalı layihə də sırf gənc nəslin Vətənə sədaqət ruhunda yetişməsi üçün böyük rol oynayır. Xüsusilə də düşmənlə həmsərhəd olan Naxçıvanın müdafiə qüdrəti, vətənpərvər oğullarının hərbi xidmətdə necə əzmkarlıq, iradə ilə doğma torpaqlarımızın keşiyində dayanması insana inanılmaz sevinc və iftixar hissi bəxş edir. Artıq beş gündür ki, layihədə fəal iştirak edirik. Burada bizlərə göstərilən diqqət isə, sözün əsl mənasında, təqdirəlayiqdir. Vaxtımızı səmərəli keçirmək üçün təşkil olunan komando oyunları, hərbi təlim məşqləri həm maraqlı, həm də faydalıdır. Bununla yanaşı, Naxçıvanın bir çox gəzib-görməli yerlərinə ekskursiyaların təşkil olunması həm də dünyagörüşümüzü formalaşdırır. Artıq təlimə yekun vursaq da, yeni layihələrdə iştirak edəcəyim günü səbirsizliklə gözləyir və inanıram ki, hər bir layihə bizi əsl vətənpərvərlik məfkurəsində formalaşdırmaq yolunda müsbət rola malikdir.

**✍ Məcid RƏŞADƏTOĞLU**

## Məktəbli yarmarkasından hər kəs razılıq edir

*Yeni dərs ilinin başlanmasına sayılı günlər qalıb. Hər ilin bu günlərində şagirdlərin məktəb hazırlığı başlayır. Artıq övladlarını məktəbə yola salmağa hazırlaşan valideynlər məktəbli ləvazimatları almaq üçün yarmarkalara üz tuturlar.*

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə hər il keçirilən məktəbli yarmarkaları artıq ənənəvi hal alıb. Belə yarmarkalar yeni tədris ili ərəfəsində şagirdlərin məktəbli geyimlərinə və dərs ləvazimatlarına olan tələbatların daha asan şəkildə təmin edilməsində mühüm rol oynayır. Həm qiymətlərin ucuzlaşmasına, həm də süni qiymət artımına nəzarətin güclənməsinə səbəb olan yarmarkalar övladlarını məktəbə yola salmağa hazırlaşan valideynlərin işini xeyli asanlaşdırıb. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır.

Qeyd edək ki, bir neçə gündür, Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi bazarda və muxtar respublikamızın rayon mərkəzlərində məktəbli yarmarkaları təşkil olunub. Bu günlərdə həmin ünvanda təşkil olunan yarmarkaya üz tutmaqda məqsədimiz satılan məktəbli ləvazimatlarının keyfiyyətini, qiymətini, valideynlərin yarmarkaya münasibətini öyrənmək idi.

Burada olarkən söhbətləşdiyimiz valideynlər yaradılmış şəraitdən xeyli razılıq etdilər. Öncə yarmarkalardakı qiymətlərlə maraqlandıq. Müşahidə etdik ki, bütün növ məktəbli ləvazimatlarının satıldığı yarmarkada onların qiyməti şəhərdə fəaliyyət göstərən digər mağazalarla müqayisədə 20 faiz aşağıdır. Əgər məktəbli üçün lazım olan bütün ləvazimatlar alınırsa, o zaman satıcılar endirim də edirlər.

Yəqin ki, oxucularımızın da bəzilərinin “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin bir neçə ay əvvəl





fəaliyyətə başlayan Satış-Sərgi Mərkəzində satılan məktəbli ləvazimatlarından xəbəri var. Həmin ləvazimatlar da məktəbli yarmarkasına çıxarılmışdı. Nəşriyyatın hazırladığı illik və gündəlik dərs planları, məktəbli kitabçaları, lüğət dəftərləri, hüsnxətlər, dəftərlər göz oxşayır. Yüksək keyfiyyəti ilə diqqəti cəlb edən ləvazimatların üzərində özünə yer almış muxtar respublikanın mədəni-tarixi abidələrinin, görməli yerlərinin şəkilləri məktəblilərin öz yurd yerimizi daha yaxından tanımaları məqsədi daşıyır. Bu barədə danışan ibtidai sinif müəllimi Lamiyyə Muradova deyir ki, ilin bu mövsümündə valideynlərlə yanaşı, müəllimlərin də qayğıları artırdı. Ancaq məktəbli yarmarkalarının təşkilinə start verildəndən sonra işimiz xeyli yüngülləşib, artıq vaxt itirib bir neçə mağazaya deyil, buraya üz tuturuq. Burada seçim etmə imkanlarımız da genişdir. Elə götürək “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin istehsalı olan ləvazimatları. Qiymətləri ucuzdur, keyfiyyətlidir. Birliyin təmsilçisinin sözlərinə görə yarmarkaya 919 çeşiddə ləvazimat çıxarılıb.

Valideyn Qumral Məmmədova: “Hər bir valideyn çalışır ki, yeni tədris ilində övladına yeni məktəbli forması, dərs ləvazimatları alsın. Əvvəllər satıcılar alıcılara yüksək qiymətlərlə məhsullar təklif edirdilər. Düşünürdülər ki, valideynlər nə olursa-olsun, həmin ləvazimatları almağa məcburdurlar. İndi isə təşkil edilən belə yarmarkalar həm süni qiymət artımının, həm də məktəb ləvazimatlarının qanunsuz satışının qarşısını alıb. Bu isə həm xərclərin optimallaşdırılması, həm də daha keyfiyyətli ləvazimatlar əldə etmək baxımından əhəmiyyətlidir”.

Digər müsahibimiz Asəf Seyidov süni qiymət artımının qarşısının alınmasında mühüm vasitə olan yarmarkaların təşkilindən razılıq etdi. O bildirdi ki, yarmarkadakı qiymətlər bazar qiymətlərindən xeyli aşağıdır. Həm də çeşid bolluğu olduğundan seçim rahatdır.

Vəsminaz Qasımova isə nəvələri üçün yarmarkaya gəldiyini bildirdi. Onun dediklərindən: “Bir zamanlar bütün sahələrdə olduğu kimi, təhsilimizdə və vəziyyət acınacaqlı idi. Lazım olan dərsliklərin tapılmaması, yaxud onların bazarlarda çox baha qiymətə satılması adi hala çevrilmişdi. Artıq o günlər xeyli geridə qalıb. Bu mənada, indi orta məktəblərdə təhsil alan şagirdlərə qibtə ilə baxmaq olar. Onlar üçün məktəbli yarmarkasında nə istəsən var. Mən də nəvələrim üçün yarmarkadan lazımi ləvazimatları aldım. Bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm”.

Qeyd edək ki, yarmarkada təkcə şagirdlər üçün deyil, müəllimlər üçün də müəyyən ləvazimatlar satışa çıxarılıb. İngilis dili müəllimi Nigar Mirzəmmədova bildirdi ki, hər il zəruri ləvazimatları bu yarmarkadan alıram. Çünki həm keyfiyyətlidir, həm də sərfəli. Ən əsası isə az zaman sərf etməklə dərs vəsaitlərini, keyfiyyətli məktəb ləvazimatlarını güzəştli qiymətlərlə ala bilirik. Belə yarmarkaların təşkili həm valideynlərə, həm də müəllimlərə daha bir qayğının ifadəsidir.

Məlumat üçün bildirək ki, həmin gün yarmarkada 23 sahibkarlıq subyektinin, 3 istehsal müəssisəsinin 52 adda məktəbli ləvazimatı satışa çıxarılmışdı.

*Məktəbli yarmarkası sentyabrın 15-dək davam edəcək. Əziz valideynlər, sevimli övladlarımız, dəyərli təhsil işçilərimiz! Sizləri bu gözəl təşəbbüsdən faydalanaraq yeni dərs ilinin təməlini uğurla qoymaq üçün keyfiyyətli məktəbli ləvazimatları, dərslik və digər tədris vəsaitləri almaq üçün məktəbli yarmarkasına dəvət edir, hər birinizə yeni tədris ilində uğurlar arzu edirik.*

**✍ Gülcamal TAHİROVA**

### *İtmişdir*

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Məmmədov Əbülfəz Abbas oğlunun adına olan JN-374 inventar nömrəli Torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərvişlər kəndində yaşayan Cabbarov Qənimət Nemət oğlunun adına verilən JN-3 inventar nömrəli Torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Qasımova Səbinə Sultan qızının adına olan MH-0017807 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Qafarov Anand Akif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 729